

# Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə

## Azərbaycan xalçaları sadəcə xalça deyil, yun kitabələrdir

Xəyalə Rais (Məmmədova)
*"Kaspi" qəzetinin müxbiri*

*("Azərbaycan xalçaları keçmişdən gələcəyə" adlı jurnalist yazıları müsabiqəsində III yerin qalibi)*

"Qədim Azərbaycan xalçasının bir parçası tərəziyə qoyulsa, o, bütün italyan intibahından ağır gələcək" - təbrizlilərin bu məşhur deyimini naməlum romalı alim də təsdiqləyir. Bəli, Azərbaycan xalçası haqqında məhz belə danışmaq olar... Ona görə ki, Azərbaycan xalçası əsrlər boyu dünya miqyasında ulu keçmişimizi, təkrarsız mədəniyyətimizi, milliliyimizi layiqincə təmsil edib. Hələ VII əsrdə yaşamış məşhur Çin səyyahı Huan Tesank yazırdı ki, Azərbaycan xalça istehsalının ən böyük mərkəzidir. Rusiyalı tarixçi alim Lev Qumilyov isə belə deyirdi: "Azərbaycan xalçaları sadəcə xalça deyil, yun kitabələrdir!"



Təsadüfi deyil ki, Azərbaycan xalçaları 2010-cu ilin noyabr ayında UNESCO-nun "Qeyri-Maddi Mədəni İrs" siyahısına salınmışdır. Bu isə ondan xəbər verir ki, Azərbaycanda xalçaçılıq sənətinin çox zəngin tarixi vardır. Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Məlumata görə, Sasanilər dövründə (III-VII əsrlər) Azərbaycanda xalça sənəti daha da inkişaf etmiş, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxunmuşdur. Alban tarixçisi Musa Kalankatlı (VII əsr) Azərbaycanda toxunan ipək parçalar və rəngarəng xalçalar haqqında geniş bəhs edib. Qızıl-gümüş saplarla toxunan və qaş-daşla bəzədilən xalçaların istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Bu cür xovsuz xalçaların əsas istehsal mərkəzləri Təbriz, Şamaxı və Bərdə şəhərləri idi. Baha başa gəldiyindən əsasən feodallar üçün hazırlanan belə xalçalar "zərbaf" adlanırdı. Azərbaycanın xalça məmulatları və onların bədii xüsusiyyətləri haqqında orta əsrlərə aid yazılı mənbələrdə maraqlı məlumatlara rast gəlinir.

Hazırda Azərbaycanda xalçaçılığın inkişafı üçün geniş imkanlar yaradılıb. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütövlükdə mədəniyyətin, o cümlədən xalçaçılığın inkişafına xüsusi diqqət yetirilib. Zaman-zaman zəifləyən, ayrı-ayrı tarixi mərhələlərin tələblərinə müvafiq olaraq, demək olar ki, tam tənəzzülə uğramış xalçaçılıq işi Azərbaycan müstəqillik əldə etdikdən sonra, xüsusilə 1993-cü ildən etibarən yenidən dirçəlməyə başlayıb. Prezident İlham Əliyevin səyi nəticəsində xalçaçılığın inkişafının yeni qanunvericilik bazası yaradılıb. 2004-cü il dekabrın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu təsdiq olunub.

Azərbaycan mədəniyyətinin, o cümlədən xalçaçılığın inkişafı və onun nailiyyətlərinin dünya miqyasında təbliği sahəsində Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın da böyük rolu vardır. Mehriban xanımın rəhbərliyi ilə Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyi münasibətilə Böyük Britaniyada, Fransada və Rusiyada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri çərçivəsində təşkil edilən xalça sərgiləri böyük şöhrət qazandı.

517825



1.



2.



3.

## Xalçaçılıq sənətinin tarixi hələ dərindən öyrənilməyib

Azərbaycan xalçaçılıq sənətinin indiki durumu, gələcək taleyi barədə elə mütəxəssislərlə danışdıq. Onların maraqlı və əhatəli fikirləri bir sıra vacib məqamları ortaya çıxardı:

"Azər–İlmə" MMC-nin direktoru, xalça tədqiqatçısı, sənətşünas-alim Vidadi Muradov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, ""Azər-İlmə"nin nəzdində Xalçaçılıq Tədris Mərkəzi açılıb. Burada yaş məhdudiyyəti yoxdur. Hər kəs gəlib təhsil ala bilər. Tədris peşəkar xalçaçılar, rəssamlar, boyaqçılar tərəfindən aparılır: "Sadəcə olaraq, uşaqların davamiyyəti bir az aşağıdır. Ona görə ki, zamanları az olur, məktəbə gedirlər, yaxud daha çox internetə maraq göstərirlər. İstərdik ki, respublikanın hər yerində xalçaçılıq sənəti tədris olunsun. Həmçinin orta məktəblərdə dərslik proqramına salınsın. Bu tədbirlər həyata keçirilsə, xalçaçılığın gələcək inkişafını təmin etmiş olarıq". Vidadi müəllimin sözlərinə görə, Azərbaycan xalçaçılığının tarixi hələ də çox dərindən öyrənilməyib. Çünki bu sənətin tarixi bildiyimiz qədər deyil, çox dərin kökləri var. Hazırda əlimizdə olan ədəbiyyat vəsaitləri bunu tam əhatə etmir. Ona görə də XVII-XVIII əsr Azərbaycan xalçaçılığı barədə çox az məlumat var: "Tarixin dəqiq öyrənilməsi üçün tərəfimizdən müxtəlif tədbirlər görülür. Amma bu kifayət etmir, bütün insanlar bu işlə məşğul olmalıdır. Peşəkarların sayı nə qədər çox olsa, xalçaçılıq sənəti də bir o qədər dərindən tədqiq olunar. Rəssamlığın xalçaçılıqla heç bir əlaqəsi yoxdur. Xalçaçı-rəssam başqadır, Azərbaycanın milli naxışlarını öyrənən insanlar başqa. İndiki dövrdə rəssamlar çox, xalçaçılar isə azdır. Bu da xalçaçılıq tarixinin vaxtilə öyrənilməməyindən irəli gəlir. Bütün Şirvan zonasında toxunan xalçalara "Şirvan xalçası" demək olmaz ki... Hər tayfanın toxuduğu xalçanın adı var, hər toxucunun vurduğu ilmənin sıxlığı var. Xalçaçılığın təməli əsasən yaylaq-qışlaq görmüş Azərbaycan tayfalarından gəlir. Xüsusən də cənubdan gəldiyi üçün Ərdəbil məktəbinə çox üstünlük vermək lazımdır. Ona görə ki, vaxtilə tərəkəmələr Azərbaycanın müxtəlif yerlərinə köçüblər. Onlar indi özlərini tərəkəmə kimi yox, məskunlaşdıqları ərazinin sakinləri kimi təqdim edirlər. Amma onun əl işinə baxanda etnik kökü aydınlaşır. Bax, xalçaçılığın bu tərəflərini bilsək, sənəti daha yaxşı qoruyub saxlayarıq. Ona görə də kimin nənəsi kimə nə öyrədibsə,

1. "Azər-Ilmə"nın xalçaçıları
2-3. "Azər-Ilmə"nin xalçaçılıq emalatxanasında

onun davam etdirilməsi daha məqsədəuyğundur. Bu maşın işi deyil ki, buradan sapı düzəsən, oradan da xalça çıxsın... Əsas odur insan özü öz keçmişi ilə əlaqəli naxışları, ornamentləri gələcəyə çatdırsın ki, aradakı zəncir qırılmasın".

Xalça tədqiqatçısı təəssüf hissi ilə qeyd edir ki, xalçaçılıq sahəsindəki indiki passivlik dövrü belə davam edərsə, vəziyyət bir az təhlükəli olacaq: "Amma mənə görə, xalçaçılıq hər zaman olub, gələcəkdə də olacaq. Bununla belə, istəyirəm ki, bu sənət daha da yaxşı inkişaf etsin. Bu gün xalça toxunmasa, əlimizdə nəsə olmasa, gələcək nəsillərə nə göstərəcəyik? Biz gələcək nəsli elə hazırlamalıyıq ki, onlar da Azərbaycan xalçasının davamlı surətdə yaşamasına, adının qorunmasına kömək etsinlər. Hazırda "Azər-İlmə"də Azərbaycan xalçalarının tanıdılması ilə bağlı müxtəlif dillərdə kitablar, broşurlar hazırlanır.

Problemlərə baxmayaraq, V.Muradov xalçaçılığın çox etibarlı əllərdə olduğunu və günü-gündən inkişaf etdiyini deyir: "Bizdə Azərbaycan xalçalarının böyük bir kolleksiyası var. Bu xalçalar haqqında tədqiqat işləri aparılır. Xarici ölkələrdə olan Azərbaycan xalçaları haqqında davamlı məlumatlar alırıq. Onların əksəriyyətinin kimlər tərəfindən qorunduğu, kimlərdə olduğu barədə məlumatımız var. Onların öz adı ilə çağırılması ilə bağlı informasiya veririk. Kolleksiyaçılarda, muzeylərdə olan və adları səhv yazılan xalçaların adlarının düzgün yazılmasına kömək etməyə çalışırıq".

## İndi xalçaçılıqda heç bir diktə yoxdur

Azərbaycan Xalça Muzeyinin direktoru Röya Tağıyeva da bizimlə söhbətində bəzi məqamlara toxundu. Bildirdi ki, muzeyin inkişafı məsələləri qarşıda duran əsas məqsədlərdəndir. Onun sözlərinə görə, bu, yeganə muzeydir ki, burada bir dönəmin xalçaçılıq sənəti tamamilə əks olunub: "Sözsüz ki, dünya muzeylərində XV-XVII əsrlərə aid Azərbaycan xalçası nümunələri var. Ancaq bu nümunələr xalça sənəti barədə dərin təsəvvür oyada bilmirlər. Həmin muzeylərdə bu xalçalara adi və gözəl bir sənət əsəri kimi baxırlar. Lakin bizim muzeyin kolleksiyasının dəyəri ondadır ki, biz həmin xalçaların mahiyyətini əks etdirə bilirik. Biz XIX əsr və XX əsrin əvvəllərinə aid xalçaları bütün evlərdən demək olar ki, tamamilə yığmışıq. Bu bizə imkan verir ki, sənəti dərindən izləyək, tədqiq edək. Hazırda həmin dövrün xalçaçılıq sənəti muzeydə çox aydın təsvir edilir. Ona görə də bizim kolleksiya dünya ölkələri üçün də çox dəyərlidir. Özü də XIX-XX əsrlər çox maraqlı bir dönəmdir. Ona görə ki, dönəmin özünəməxsus xüsusiyyətləri var. Belə ki, burada heç bir təsir mexanizmi yoxdur. Buna qədər Azərbaycan xalçası hər bir yeniliyə açıq idi. İstər Səfəvilər dövründə sufilərin tərəqqisi, istər İpək yolu, istərsə də daha əvvəllərin saray mühiti xalçaçılıq sənətinə diktə edirdi. Amma XIX əsrdə heç bir hakimiyyət yox idi, nə şahlar, nə miniatüristlər vardı. Beləcə, xalçaçılıq sənətinin əsas dərin, genetik xüsusiyyəti məhz bu dövrdə ortaya çıxdı. Artıq heç kim sənətə müdaxilə edə bilmədi, xalq öz təxəyyülünün məhsulunu, öz genetik xüsusiyyətini göstərə bildi".

4.





5.



## Xalçalarımızda millətin mənəvi dünyası əks olunub

Röya xanıma görə, xalçaçılıq sənəti üçün sovet dövrü durğunluq dövrü idi. Sənətin xüsusiyyətlərinə fikir verilmirdi, bir sözlə, bazar diktəsi hökm sürürdü. İndi isə çox açıq dövrandır. Kim nə istəyirsə toxuya bilər. Sözsüz ki, bu sahəyə dəstək də lazımdır. Xalçaçılıq bir xalq yaradıcılığıdır. Ona görə də hər birimiz çalışmalıyıq ki, bu yaradıcılıq sahəsini inkişaf etdirək. Bunun üçün kifayət qədər imkanlar da var. Düzdür, mühit dəyişib, qloballaşma dövrüdür. Amma başa düşürük ki, xalq sənətini, milli-mənəvi dəyərləri də qoruyub saxlamaq lazımdır. Yeni mühitdə sənət də yeni formada inkişaf etməlidir. Burada əsas rol isə indiki uşaqların üzərinə düşür: "Mən istəyərdim ki, xalçaçılıq sənəti orta məktəb dərsliklərinin əsas proqramına daxil edilsin. Xalça sənəti naxışla, rənglə davam edəcək, amma biz istərdik ki, sənət öz mənası ilə davam etsin. Onda olan simvollar yaşasın".

4. Azərbaycan Xalça Muzeyinin binası
5. Azərbaycan Xalça Muzeyinin ekspozisiya zalları

Muzeyin direktoru onu da vurğuladı ki, kolleksiyalarına 6 minə yaxın xalça və xalça məmulatları daxildir. Bunların heç biri digərini təkrarlamır. Özü də bir dövrün məhsullarıdır: "Görün, bu nə boyda zənginlik deməkdir. Xalçaçılıq böyük bir sənətdir. Qərbdə elə bir ev tapmazsan ki, orada yerə xalça sərməsinlər. Əcnəbilərin də bizim xalçaya belə xüsusi diqətlə yanaşması Azərbaycan xalqını daha zəngin göstərir".

Milli Məclisin deputatı, tarixçi professor Musa Qasımlı isə qeyd etdi ki, xalçalarımızda millətimizin mənəvi dünyası əks olunub. Onun sözlərinə görə, tarixi Azərbaycan coğrafiyasında dünya şöhrətli xalçaçılıq məktəbləri olub: "Hələ XX əsrin 70-ci illərində rayonlarımızın bir çoxunda xalçaçılıq sexləri açılmışdı. Bununla yanaşı, ölkəmizdə kənd yerlərində qızlar bu sahədə heç bir təhsil almadan ən gözəl xalçalar toxuyaraq, möhtəşəm sənət nümunələri yaradıblar, indi də yaradırlar. Bu gün dünyanın ən böyük muzeylərində Azərbaycan xalçaları saxlanılır. Lakin həmin xalçaların çoxunun üzərində Azərbaycanda toxunduğunu ifadə edən məlumatlar yoxdur. Ona görə də başqa ölkələr onları öz adlarına çıxırlar. Bu sərvətlərin bizə məxsus olduğunu göstərmək üçün müvafiq qurumlarımız həmin muzeylərlə lazımi işlər apara, eyni zamanda qanunvericilikdə müəyyən addımlar atıla bilər".